UOT 78
https://doi.org/10.59849/2311-8482.2024.1.130

KƏMALƏ ATAKİŞİYEVA*

# NAXÇIVAN YALLILARI PEŞƏKAR RƏQS KOLLEKTİVLƏRİNİN REPERTUARINDA

*Məqalə Azərbaycan xalq rəqslərinin mühüm qismini ehtiva edən Naxçıvan yallılarına həsr edilmişdir. Xalq rəqslərinin ən qədim növü hesab edilən yallıların öyrənilməsi əsas etibarilə tarixi, etnoqrafik və musiqi araşdırmalarında öz əksini tapmışdır. Naxçıvan yallılarının xoreoqrafik məzmunu haqqında məlumatlar ayrı-ayrı tədqiqatlarda yer alsa da, xüsusi tədqiqat obyekti kimi araşdırılmamışdır. Yallılar peşəkar rəqs kollektvilərinin repertuarında geniş yer tutur və bu irsin xoreoqrafiya elminin meyarları əsasında öyrənilməsi zəruridir. Məqalədə Naxçıvan yallılarının növləri, eləcə də səhnə kompozisiyaları haqqında məlumat verilmişdir.*

***Açar sözlər:*** *Naxçıvan, yallı, rəqs, xoreoqrafiya, kompozisiya.*

## Giriş

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan həm də qədim rəqsləri ilə tanınır. Xalq rəqslərinin qədim nümunəsi hesab edilən “Yallı”ların ən çox növü məhz Naxçıvana məxsusdur. Bu ərazidə yerləşən Gəmiqaya abidələrində daş üzərinə oyulmuş rəsmlərdə rəqs edən insan təsvirlərinin aşkarlanması da deməyə əsas verir ki, Naxçıvan Azərbaycan rəqs sənətinin ən qədim izlərini özündə daşıyır.

## Əsas təhlil

Yallı rəqslərinin elmi tədqiqatlarda araşdırılması bir neçə istiqamətdə aparılmışdır. Bu rəqs barədə tarix, musiqişünaslıq, xoreoqrafiya araşdırmalarında məlumatlar yer almış, yallıların müxtəlif növləri nota salınaraq çap olunmuşdur. Yallıların toplanmasında musiqişünas alim Bayram Hüseynlinin mühüm rolu olmuşdur. Onun nəşr etdirdiyi rəqs məcmuələrindən I dəftər bilavasitə yallılardan ibarət idi. Bundan başqa yallıların not yazılarına Rauf Bəhmənlinin tədqiqatlarında və rəqs məcmuələrində geniş yer verilmişdir. Yallılarla bağlı bir sıra tədqiqatlar da mövcuddur ki, burada rəqsin tarixi, mənşəyi, növləri, xarakteri, icra üsulları və s. haqqında informasiya yer alır. Bu mənada Əqidə Ələkbərovanın, Ədalət Kərimlinin, Günay Məmmədovanın, Əkrəm Məmmədlinin tədqiqatları misal ola bilər.

Ə.Kərimlinin tədqiqatı bilavasitə Naxçıvan yallılarına həsr olunmuşdur. Müəllif öz kitabında 50 yallının adını vermiş, eləcə də hər yallı haqqında tarixi-etnoqrafik məlumat təqdim etmişdir. Bu məlumatda həmçinin rəqsin icra üsullarından da söz açılır. G.Məmmədovanın kitabında Naxçıvanda müəllif tərəfindən toplanmış xalq musiqi nümunələrinin təhlili aparılmışdır ki, onların arasında da “Höynərə”, “Qaz-qazı”, “Qaleyi” kimi yallı nümunələri yer alır [7, s.162]. Yallılarla bağlı musiqişünaslıq tədqiqatları çoxluq təşkil etməklə yanaşı, bu rəqsin xoreoqrafik məzmunu və icra üsulları da tədqiqatçıların diqqətindən yayınmamışdır.

Yallı rəqsinin icrası ilə bağlı məlumata Azərbaycanın ilk balet ustası Q.Almaszadə tərəfindən 1959-cu ildə hazırlanaraq nəşr edilmiş “Azərbaycan xalq rəqsləri” metodik vəsaitində rast gəlinir. Burada rəqsin ifa qaydaları qısa şəkildə şərh edilsə də, ümumiləşdirilmiş mahiyyət daşıyır. “Rəqs dövrə boyu ifa edilir, iştirak edənlər qollarını açaraq bir-birlərinin çeçələ barmağından tutur, ya da əllərini bir-birlərinin çiyinlərinə qoyurlar” [2, s.9]. Daha sonra isə müəllif rəqsin icra üsullarının sxemini əks etdirən xüsusi başlıqda əl və ayaq hərəkətlərinin mexanizmini şərh etmişdir. Bu bölmədə isə altı növ yallı gedişi izah edilmişdir. Bu kitab yallı rəqslərinin peşəkar səhnədə icrası üçün nəzərdə tutulan ilk elmi-praktik vəsait kimi olduqca qiymətlidir.

Yallılarla bağlı tarixi, etnoqrafik və xoreoqrafik məlumatlar Kamal Həsənovun XX əsrin 80-ci illərində nəşr edilən iki monoqrafiyasında da yer almışdır. Bir çox xalq rəqslərimizin icrası ilə bağlı xeyli sayda dəyərli məlumatların yer aldığı bu kitablarda yallılara da geniş yer verilmişdir. Birinci kitab 1983-cü ildə işıq üzü görmüşdür. Burada müəllif yallı rəqsinin yaranma tarixi, adlanması, növləri və icrası ilə bağlı maraqlı faktları qeyd etmişdir: “Yallı iki cür, yəni iki şəkildə olur: rəqs yallısı və oyun yallısı” [4, s.57]. 1988-ci ildə çap olunmuş ikinci kitab isə bilavasitə süjetli rəqslərə həsr olunmuş və burada 8 sayda yallı rəqsi haqqında məlumat verilmişdir. Burada Şəki, Gəncə, Şamaxı, Ordubad,

Şərur, Qazax, Sabirabad, eləcə də Ermənistan və Azərbaycanda azərbaycanlılar yaşayan kəndlərdən toplanmış yallılar verilir [5, s.84]. Müəllifin əsas xidməti artıq demək olar ki, unudulmağa doğru gedən bu nümunələrin icra üsullarını və sxem şəkillərini verməsidir. Bu gün müasir xoreoqraflar qədim rəqslərin bərpası istiqamətində xüsusi maraq göstərir və artıq bu marağın müsbət nəticələrini biz Azərbaycan Dövlət Rəqs Ansamblının çıxışlarında görə bilərik.

Naxçıvan yallılarının xalq arasında böyük məhəbbətlə ifa olunması, el şənliklərində yaşlı – cavan hər kəsin bu rəqsi bilməsi mühüm əhəmiyyət daşımışdır. Məhz bu sayədə yallılar tədricən gələcə nəsillərə də ötürülə bilmişdir. XX əsrin 30-40-cı illərində Azərbaycanda ilk peşəkar rəqs kollektivinin yaranması ilə yallı rəqsinin inkişafında yeni mərhələ başlanmışdır. Məlumdur ki, bu kollekitv 1935-ci ildə dahi bəstəkar Üzeyir bəyin təşəbbüsü və rəhbərliyi altında təşkil edilmiş, onun repertuarına isə birbaşa o özü nəzarət etmişdir. Əsas tərkibi xalq rəqslərindən təşkil edilən repertuarda yallı rəqsinin yer alması da mühüm fakt idi. Bu dövrdə Azərbaycanda həm də peşəkar balet məktəbinin formalaşması, klassik rəqs sənətinin nümayəndələri yetişirdi. Tədricən rəqs sənətində səhnə meyarlarının formalaşması xalq rəqslərinin də ifasına da öz təsirini göstərməyə başlayırdı.

Hal-hazırda Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı adlanan bu kollektivin repertuarında təqdim edilən yallı rəqsləri məhz Naxçıvan yallılarının xoreoqrafik məzmunu üstündə qurulmuşdur. Bir faktı da xüsusilə qeyd etmək lazımdır ki, hələ XX əsrin ortalarından başlayaraq Q.Almaszadə, Ə.Abdullayev, L.Vəkilova, Ə.Dilbazi, X.Zülfüqarova kimi rəqs ustaları ölkənin müxtəlif bölgələrinə ekspedisiya səfərlərinə gedərək yaşlı nəslin nümayəndələrindən xalq rəqslərinin ifa xüsusiyyətlərini öyrənir və bu biliklərdən daha sonra səhnə kompozisiyalarında bəhrələnirdilər. Bu rəqslər içərisində yallılar da vardı.

Yallılar bir çox rəqs kollektivlərinin repertuarında geniş yer tutur. Çünki bu rəqslər Azərbaycan xalqının əsas siması, birlik və mübarizlik rəmzidir: "Yallı təkcə musiqi və rəqs növü deyil, o qədim türk tarixinin başlıca möhürü, Azərbaycanımızın mənəvi emblemi və xalqımızın azərbaycançılıq simvoludur" [3, s.17]. "Milli rəqs sənəti" kitabında Dövlət Mahnı və Rəqs Ansamblının repertuarında Yallı ilə bağlı məlumat 1959-cu il dekadası ilə bağlı verilmişdir: "Ansamblın proqramı iki hissədən ibarət idi. Birinci şöbəyə "Neftçilər", "Gənclik" süitaları, "Nazlana-nazlana", "Çobanlar" və "Çin" rəqsləri, ikinci şöbəyə "Vətən süitası", "Üç gül", "Şəki", "Qaytağı", "Yallı" və "Çadra ilə rəqs" daxil edilmişdi" [9, s.153]. Həmin illərdə qurulan yallı ilə bağlı Ə.Abdullayevin quruluş verdiyi "Yallı-Zorxana" kompozisiyası da təqribən 50-ci illərə təsadüf edir [10].

1951-ci ildə Berlində Tələbə və Gənclər Festivalı keçirilmişdi. Ə.Kərimlinin Əminə Dilbazi ilə bağlı verdiyi informasiyada Berlin səfərindən bəhs olunur və bu həmin proqramda 12 Şərur yallısından ibarət bir qrup rəqs kompozisiyası da hazırlanmışdı. Onların sırasında Əminə xanım "Gopu", "Köçəri", "Qaladan-qalaya", "Tənzərə" və s. yallıların adını qeyd etmişdi [6, s.6]. Hələ 50-ci illərdə artıq rəqs kollektivinin proqramında yallıların ondan çox növünün yer alması bu rəqsə peşəkar xoreoqraf marağının və xalq məhəbbətinin bariz sübutu idi. Qeyd etmək lazımdır ki, həmin illərdə Naxçıvanın müxtəlif rayonlarında fəaliyyət göstərən rəqs ansambllarının repertuarında yallıların daha çox növləri yer alırdı və burada rəqsin xalq biliciləri ilə yanaşı, gənc nəslin nümayəndələri də çıxış edirdi. Ə.Dilbazi Berlin səfəri üçün hazırlanmış yallıların icra üsullarını da məhz həmin ansamblların (Şərurun "Nurani" rəqs ansamblı) təmsilçilərindən almışdı. Qeyd etmək istərdik ki, həmin illərdə bəstəkarlar da yallı janrında əsərlər yazırdılar. Onlardan biri - Soltan Hacıbəyovun bəstələdiyi "Yallı" əsərinin musiqisi əsasında 1959-cu il dekadasında kollektiv üçün rəqs kompozisiyası qurulmuşdu [1, s.26]. Bundan başqa Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Cahangir Canahgirov, Soltan Hacıbəyov, Cavanşir Quliyev, Eldar Mansurov və başqa bəstəkarlar yallı rəqslərinin musiqisindən, eləcə də ritmik xüsusiyyətlərindən bəhrələnərək öz əsərlərində istifadə etmişlər.

Yallı rəqsinin yeni quruluşu keçən əsrin 80-ci illərində xoreoqraf Fərhad Vəliyevin təfsirində tamaşaçılara təqdim edilmişdi. Daha sonra bu rəqsin daha müasir quruluşlarını Afaq Məlikovanın bədii rəhbərliyi zamanı müşahidə edirik. Xüsusilə Azərbaycan Dövlət Rəqs Ansamblının ifasında "Atəşgah", "Qobustan", "Qarabağ yallısı" bu rəqsin parlaq nümunələri kimi böyük tamaşaçı rəğbəti qazanmışdır. Müasir dövrdə bədii rəhbər Xalq artisti Rüfət Xəlilzadənin quruluşunda "Tənzərə", "Zəngəzur" kompozisiyaları bilavasitə Naxçıvan yallılarının xoreoqrafik məzmunu əsasında qurulmuşdur. Ümumiyyətlə, rəqs ansamblının repertuarında Şəki, Qarabağ, Naxçıvan yallıları əsasında peşəkar səviyyəli xoreoqrafik kompozisiyalar yer almışdır. Rəqslərin plastik məzmunu isə deməyə əsas verir ki, xoreoqraflar regional meyarları hər zaman diqqət mərkəzində saxlamışlar. Lakin, "Yallı" adlandırılan əksər rəqs kompozisiyalarının yaranmasında baletmeysterlər bilavasitə

Naxçıvan yallılarının icra üsullarından bəhrələnmişlər. Bu fakt isə deməyə əsas verir ki, Yallılar tarixi və musiqi məzmunu ilə yanaşı, xoreoqrafik meyarlar baxımından geniş tədqiqata ehtiyac duyur. Çünki bu rəqslərin hər birində xalqın tarixini, mənəvi dəyərlərini, psixologiyasını, dünyagörüşünü əks etdirən plastik məzmun vardır. Rəqs sənəti-bədən dili adlandırılır. Bu isə ifaçının çatdırmaq istədiyi informasiyanı məhz bədən, əl-ayaq hərəkətləri, mimika, jest, poza və s. ifadə vasitələri ilə söyləməsi anlamına gəlir.

**Nəticə**

Xalq rəqslərində isə bu məzmunun öyrənilməsi tarixin dərin qatlarından xəbər verə bilər. Yallıların Azərbaycanın qədim yaşayış məskənlərindəki qayaüstü təsvirləri onun xoreoqrafik məzmununun araşdırılması üçün tarixi qaynaq olmaqla yanaşı, həm də əsrlər öncədən bizə miras qalan rəqs hərəkətlərinin semantik, simvolik mənalarını çözməyə imkan verir. Belə tədqiqatların aparılması milli sərvətimiz olan Naxçıvan yallılarının qorunması və gələcək nəsillərə ötürülməsi işində mühüm töhfə ola bilər.

## ƏDƏBİYYAT


1. Abdullayeva E.Ə. Əlibaba Abdullayev. Bakı, Adiloğlu, 2005. 120 s.
2. Almaszadə Q.H. Azərbaycan xalq rəqsləri. Bakı, Birləşmiş nəşriyyat, 1959. 80 s.
3. Bəhmənli R.B. Azərbaycan yallıları. Bakı, Mütərcim, 2018. 140 s.
4. Həsənov K.N. Qədim Azərbaycan xalq rəqsləri. Bakı, İşıq, 1983. 60 s.
5. Həsənov K.N. Azərbaycan qədim folklor rəqsləri. Bakı, İşıq, 1988. 130 s.
6. Kərimli Ə. Yallı. Bakı, Şirvannəşr, 2004. 130 s.
7. Məmmədova G. Naxçıvanın musiqi folkloru. Bakı: ADPU nəşriyyatı, 2012. 235 s.
8. Vasif Çörəkçi. Yallı birlik rəmzidir. Bakı, Şirvannəşr, 2003. 130 s.
9. Rəhmanlı Ə.M., Bəşirov X.Ə. Milli rəqs sənəti. Bakı, Ecoprint, 2019. 580 s.

Saytoqrafiya

10. Yallı-Zorxana. Quruluş Əlibaba Abdullayevin // https:// www.youtube.com/ watch?v= 8YPYs6lTIp4
11. Naxçıvan yallısı. “Çinar” rəqs qrupu // https://www.youtube.com/watch?v= 9Om6DrovI-g
12. Yallı. Azərbaycan Dövlət Rəqs Ansamblı. // https://www.youtube.com/watch?v= RMwtPhI5ytM



**** AMEA Memarlıq və İncəsənət İnstitutu,***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***
***e-mail:kamala.bashirova@mail.ru***



**Kemala Atakishieva**


## NAKHCHIVAN`S YALLI IN THE REPERTOIRE OF PROFESSIONAL DANCE COLLECTIVES


The article is devoted to the Nakhchivan round dances of Yallı (plural - Yallılar), which form an important part of Azerbaijani folk dances. Materials for research on yalla, considered the oldest type of folk dance, are mainly contained in historical, ethnographic and musicological works. Although information about the choreography of Nakhchivan yalls is scattered across separate studies, they were never the subject of special research. The Yalla genre occupies a large place in the repertoire of professional dance groups, and the study of this heritage requires not only a musicological, but also a purely scientific and choreographic approach. The article offers relatively comprehensive information about the musical variants of Nakhchivan Yalli, as well as the history and practice of their stage performance.s



**Keywords:** *Nakhchivan, yalli, dance, choreography, composition.*

**Кемалы Атакишиева**

## НАХЧЫВАНСКИЙ ЯЛЛЫ В РЕПЕРТТУАРЕ ПРОФЕССИОНАЛЬНЫХ ТАНЦЕВАЛЬНЫХ КОЛЛЕКТИВОВ

Статья посвящена нахчыванским хороводным танцам Яллы (мн.ч.-Yallılar), которые составляют важную часть азербайджанских народных танцев. Материалы для исследований яллы, считающегося древнейшим видом народного танца, в основном содержатся в исторических, этнографических и музыковедческих работах. Хотя сведения о хореографии нахчыванских яллов разбросаны по отдельным исследованиям, они некогда не были обьектом специального исследования. Жанр Яллы занимает большое место в репертуаре профессиональных танцевальных коллективов, и к изучению этого наследия требует не только музыковедческого, но и чисто научно-хореографического подхода. Статья предлагает относительно всестороннюю информацию о музыкальных вариантах Нахчыванских Яллы, а также истории и практики их сценического воплощения.

**Ключевые слова:** *Нахчыван, яллы, танец, хореография, композиция.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 12.02.2024**
**Son daxilolma tarixi:14.03.2024**